*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 358-365*

https://doi.org/10.62837/2026.3.358

**ZƏHRA ZÜLFÜ RZAZADƏ**
**Xəzər Universiteti**
E-mail: zehra.rzazade2909@gmail.com
**82.091**
**https://orcid.org/0009-0002-5326-9719**

# FƏRHAD OBRAZININ TARIXI VƏ MÜASIR INTERPRETASIYASI (ARIF ƏRDƏBILI, SƏMƏD VURĞUN VƏ NAZIM HIKMƏT ƏSƏRLƏRI ƏSASINDA)

## XÜLASƏ

Məqalədə Fərhad obrazının müxtəlif tarixi mərhələlərdə keçirdiyi bədii transformasiya və onun daşıdığı mənəvi-ideoloji məzmunun dəyişməsi Arif Ərdəbilinin “Fərhadnamə”, Səməd Vurğunun “Fərhad və Şirin” və Nazim Hikmətin “Fərhad ilə Şirin” əsərləri əsasında müqayisəli şəkildə təhlil olunur. Araşdırmanın əsas məqsədi klassik Şərq ədəbiyyatında ilahi eşqin simvolu kimi formalaşan Fərhad surətinin əsrlər boyu keçirdiyi mənəvi, sosial və ideoloji təkamülü üzə çıxarmaqdır. Müqayisəli təhlil göstərir ki, hər üç müəllif Fərhad obrazını yaşadıqları dövrün ictimai-siyasi reallıqları və estetik düşüncə sistemi ilə səsləşdirərək yenidən qurmuşdur. Bu kontekstdə Fərhad surəti yalnız fərdi eşq qəhrəmanı kimi deyil, həm də əmək, iradə və insan amilini önə çəkən ideoloji model kimi təqdim olunur.

Beləliklə, obrazın semantik yükü mistik-ilahi səviyyədən sosial və humanist məzmun müstəvisinə keçid edir ki, bu da klassik motivin modern interpretasiya imkanlarını üzə çıxarır.

**Açar sözlər:** *Fərhad, interpretasiya, Arif Ərdəbili, Səməd Vurğun, Nazim Hikmət, məhəbbət və ideologiya, klassik və müasir ədəbiyyat.*

## Giriş

Fərhad obrazı Şərq ədəbiyyatının ən qədim və mənəvi baxımdan zəngin arxetiplərindən biridir. Nizami Gəncəvinin “Xosrov və Şirin” əsəri ilə ədəbiyyata daxil olan bu obraz sonrakı əsrlərdə müxtəlif müəlliflər tərəfindən yenidən işlənmiş, hər dəfə yeni mənalarla zənginləşmişdir. Fərhad həm eşqin, həm də insanın mənəvi ucalığının təcəssümü kimi təqdim olunur.

Zaman keçdikcə ədəbiyyatın ideoloji və estetik yönü dəyişmiş, bu da Fərhad obrazının müxtəlif interpretasiyalarına səbəb olmuşdur. Orta əsr klassik ədəbiyyatında bu obraz ilahi eşq ilə bağlı mənalar daşıyırdısa, XX əsrdə - milli oyanış, əmək və humanizm ideyalarının ön plana çıxdığı dövrdə - Fərhad artıq xalqın azadlıq arzularının və əməyin qəhrəmanı kimi təqdim edilmişdir.

Arif Ərdəbilinin “Fərhadnamə”si bu ənənənin mühüm mərhələlərindən biridir.Arif Ərdəbilinin Fərhadı - ideal qəhrəmandan çox, dövrünün feodal

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 358-365*

ziddiyyətlərinin təsiri altında əzilən bir insan obrazıdır. Bu, klassik Fərhad konsepsiyasının artıq insani, sosial və etik səviyyəyə enməsini göstərir.

Səməd Vurğunun "Fərhad və Şirin" dramı isə klassik süjetə milli-romantik məzmun qazandırır. Burada Fərhad xalq içindən çıxan sənətkar, öz zəhmətinin qüdrəti ilə tanınan qəhrəmandır.

Nazim Hikmətin "Fərhad ilə Şirin"i isə mövzunun modern və ideoloji istiqamətdə tamam yeni yozumudur. Burada Fərhad artıq təkcə aşiq deyil, xalqının rifahı üçün mübarizə aparan, dağ yarmaqla xalqa su gətirmək istəyən əmək qəhrəmanıdır.

Bu məqalədə Fərhad obrazının tarixi və müasir interpretasiyasının araşdırılmasında müqayisəli ədəbiyyatşünaslıq metodundan istifadə olunmuşdur. Arif Ərdəbilinin "Fərhadnamə", Səməd Vurğunun "Fərhad və Şirin" və Nazim Hikmətin "Fərhad ilə Şirin" əsərləri ideya-məzmun və bədii xüsusiyyətlərinə görə paralel şəkildə təhlil edilmişdir. Eyni zamanda, obrazın müxtəlif dövrlərdə keçirdiyi mənəvi və ideoloji dəyişikliklərin izlənilməsi məqsədilə tarixi-tipoloji yanaşma tətbiq olunmuşdur. Əsərlərin bədii mətn kimi şərhində interpretativ və analitik üsullardan, janr xüsusiyyətlərinin müəyyənləşdirilməsində isə struktur-semantik analiz metodundan istifadə edilmişdir.

**Əsas hissə**

Xalq rəvayətlərindən yayılaraq yazılı ədəbiyyatda da geniş şəkildə özünə yer tapan "Fərhad və Şirin" mövzusu hər müəllifin qələmində yeni toxunuşlarla zənginləşmiş, ümumi ortaq dəyərləri özündə birləşdirsə də müəllif məqsədindən, dövrün ədəbi yaradıcılığa olan təsirindən aslı olaraq hər dəfəsində yeni keyfiyyətlər qazanaraq fərqlər də ortaya qoymuşdur. Qeyd etdiyimiz kimi bu fərqlərin yaranmasına müxtəlif amillər təsir etmişdir. Bu amillərə əsər müəlliflərinin yaşadıqları dövrü, müəllifin şəxsi görüşlərinin, inandıqları ideologiyaların təsirlərini aid etmək olar. Bu fərqləri və müxtəliflikləri Arif Ərdəbilinin, Səməd Vurğunun, Nazim Hikmətin Fərhadla bağlı yazdıqları əsərlərdə müşahidə etmək olar. İlk nəzərə çarpan fərq sözsüz ki, müəlliflərin müraciət etdikləri janrlar olmuşdur.

XIV əsrdə ədəbi yaradıcılıqda ən geniş yayılmış janrlardan biri məsnəvi idi. Arif Ərdəbili də bu ənənəyə sadiq qalaraq "Fərhadnamə" əsərini məsnəvi formasında yazmaqla dövrün poetik tələblərinə və ədəbi üslubuna uyğunlaşmışdır.

XX əsrdə isə ədəbi mühit, ictimai münasibətlər və estetik meyarlar əsaslı şəkildə dəyişmişdi. Artıq şifahi və yazılı ənənələrin sintezindən yaranan dram janrı həm sənət, həm də ictimai ideyaların ifadəsi baxımından aparıcı mövqe tutmuşdu. Bu baxımdan, Səməd Vurğun və Nazim Hikmətin eyni mövzuya müraciət etmələri, lakin bunu dramatik forma vasitəsilə ifadə etmələri ədəbi prosesin təbii inkişaf qanunauyğunluğu kimi qiymətləndirilə bilər.

Eyni dövrdə fərqli coğrafiyalarda – Azərbaycan və Türkiyədə – yaşamış Səməd Vurğun və Nazim Hikmət, hər ikisi dram janrının ictimai təsir gücündən istifadə edərək klassik "Fərhad və Şirin" süjetini yeni ideoloji məzmunla yenidən

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2026
Səh. 358-365

mənalandırmışlar. Dram janrının dioloji strukturu, konflikt üzərində qurulan süjeti və obrazların psixoloji dinamizmi müəlliflərə ideyalarını canlı və təsirli şəkildə təqdim etmək imkanı vermişdir.

Janr baxımından bu təkamül ədəbiyyat tarixində məzmunun formaya, formanın isə zamana uyğun dəyişməsi prinsipini aydın şəkildə nümayiş etdirir. Hər iki mərhələdə əsas ideya – Fərhadın mübarizəsi – eyni qalsa da, bu mübarizənin xarakteri və məqsədi dəyişmişdir.

Janr fərqlərinin təhlili göstərir ki, hər bir müəllif öz dövrünün estetik tələblərinə və ədəbi mühitin xüsusiyyətlərinə uyğun sənət forması seçsə də, onların əsərlərində məzmunun ideya istiqaməti müəyyən dərəcədə bir-birinə yaxınlaşır. Bu baxımdan, mövzunun müxtəlif janrlarda təqdim olunması ideyanın dəyişməsinə deyil, əksinə, onun daha geniş və çoxşaxəli təfsirinə şərait yaratmışdır.

Məhz bu nöqtədən etibarən, əsərlərin ideya-fəlsəfi məzmununun oxşar və fərqli xüsusiyyətlərinin müqayisəli şəkildə araşdırılması zərurətə çevrilir. Çünki hər üç müəllif — Arif Ərdəbili, Səməd Vurğun və Nazim Hikmət — “Fərhad və Şirin” süjetinə müraciət etməklə eyni bədii qayəni — insanın mənəvi ucalığı, məhəbbətin mahiyyəti və mübarizə idealını fərqli ideoloji baxış bucağından ifadə etmişlər. Onların yaradıcılığında bu ideyaların təfsiri həm fərdi sənət dünyagörüşünü, həm də dövrün ictimai-mədəni dəyərlər sistemini əks etdirir.

Beləliklə, növbəti mərhələdə bu əsərlərin əsas ideyasını, onların bədii və fəlsəfi istiqamətlərini, həmçinin ideya baxımından oxşar və fərqli məqamlarını təhlil etmək məqsədəuyğundur.

Arif Ərdəbilinin " Fərhadnamə"-ni yazmaqda əsas məqsədi Nizami ənənələrini davam etdirmək olmamışdır. Əksinə müəllif Nizamidən fərqli istiqamət seçdiyini əsərin əvvəlində bildirmişdir. O, Nizaminin qəhrəmanlarının daha çox xəyala uyğun olduğunu bildirmiş, *"Xəyal da yerində xoş olar"* deyərək daha həyati və real bir qəhrəman yaratmağı qarşısına məqsəd qoymuşdur. Əsərin də əsas ideyasını Fərhad obrazının real cizgilərini yaradaraq, real məhəbbəti tərənnüm etməkdir. Arif Ərdəbili bu baxımdan qəhrəmanlarının hisslərini də dünyəviləşdirməyə çalışmışdır, onlar adi insanlar kimi həm sevinir, həm kədərlənir, həm də səhvlərə yol verir. Burada məhəbbət öz dünyəvi xüsusiyyətləri ilə diqqəti çəkir. Arif Ərdəbili Nizami Gəncəvidən fərqli olaraq Fərhadın Şirinə olan məhəbbətini uğruna ölünəcək saf sevgi olaraq deyil, gizli münasibət şəklində qorxaraq yaşanılan bir sevgi kimi göstərir.

Müasir dövrdə Səməd Vurğun və Nazim Hikmətin yaratdıqları " Fərhad və Şirin" əsərləri də ideya baxımından müxtəlif olmuşdur. Səməd Vurğun əsəri 1941- ci ildə - 2ci Dünya müharibəsinin təsirinin hər tərəfdə hiss olunduğu bir dövrdə yazmışdır. Bu təsir nəticəsində Səməd Vurğunun " Fərhad və Şirin" mənzum dramında ideya sadəcə iki aşiqin bir- birinə olan sevgisi deyil, həm də vətənə olan məhəbbətdir. Əsər boyu Fərhad və Şirini bir-biri ilə yaxın edən əsas ortaq cəhət vətənlərinə olan məhəbbət olmuşdur. Hətta bir çox məqamlarda vətənə olan məhəbbət Fərhad və Şirin

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 358-365*

məhəbbətini kölgədə qoyur. Bu da müəllifin çatmaq istədiyi məqsədlə bağlıdır. Bu baxımdan Səməd Vurğunun "Fərhad və Şirin" dramı klassik sujetə milli-romantik baxışın tətbiqidir.

Nazim Hikmətin "Ferhat ile Şirin" dramı isə ideya baxımından digər əsərlərdən daha çox fərqlənir. Burada müəllif sosialist realizm prinsiplərindən çıxış edərək xalq uğrunda öz sevgisini belə 2-ci plana qoyan qəhrəman yaratmışdır. Fərhadın xalqına olan sevgisi Şirinə olan məhəbbətinin qarşısına keçir və Şirin də bu sevgi ilə mübarizədə geri dayanmaq məcburiyyətində qalır. Nazim Hikmət sosialist realizm prinsiplərinə əsasən xalq rəvayətlərinin müsbət qəhrəmanını əsərinə daxil edərək onu xalq və əmək qəhrəmanına çevirmişdir.

Əsərlərin ideya-məzmun xüsusiyyətlərinin müqayisəsi göstərir ki, hər üç müəllif – Arif Ərdəbili, Səməd Vurğun və Nazim Hikmət eyni mövzuya müxtəlif fəlsəfi və estetik yanaşmalar gətirmişlər. Bununla belə, bu fərqli ideya istiqamətləri onların qəhrəman konsepsiyasına da birbaşa təsir göstərmişdir. Məhz bu baxımdan, müəlliflərin yaratdığı Fərhad obrazlarının səciyyələndirilməsi, onların fərdi yaradıcılıq üslubunun və dövrün ədəbi-estetik prinsiplərinin daha dərindən dərk edilməsinə imkan verir.

Fərhad obrazı Şərq ədəbiyyatında əsrlər boyu məhəbbət, fədakarlıq və mənəvi kamilliyin rəmzi kimi formalaşmış, müxtəlif dövrlərdə fərqli bədii-estetik baxışlarla təqdim olunmuşdur. Arif Ərdəbili, Səməd Vurğun və Nazim Hikmət bu əbədi mövzunu öz dövrlərinin ədəbi-estetik tələblərinə uyğun şəkildə işləyərək, Fərhad obrazına yeni məna qatları gətirmişlər.

Ərdəbili bu süjetə sırf eşq dastanı kimi deyil, insanın mənəvi sınağı və sosial təbəqələşmənin təsiri kimi baxır. Əsərdə Fərhad hökmdar oğlu olsa da, onun əməyə, zəhmətə və sadəliyə dərin hörməti diqqət çəkir. Müəllif bu cəhətlə qəhrəmanını feodal zümrənin varisi kimi deyil, əmək dəyərini anlayan bir fərd kimi təqdim edir.

Fərhadın Gülüstana olan məhəbbəti əsərin əsas hissəsində saf və mənəvi təmiz bir sevgi kimi görünür. Gülüstanın rəsmini görərək aşiq olması, onunla evlənməsi və ölümündən sonra uzun müddət yas tutması bu saf hisslərin sübutudur. Lakin Fərhadın sonradan Şirinlə olan gizli münasibətləri bu mənəvi təmizlik konsepsiyasını pozur. Ərdəbili burada insanın ziddiyyətli təbiətini göstərir: bir tərəfdə sədaqət və paklıq, digər tərəfdə ehtiras və günah.

Əsərdəki hadisələrə əsasən Fərhad artıq "ilahi aşiq" deyil, psixoloji dərinliyi olan insandır. O, cinayət işləyərək öz mənəvi bütövlüyünü sarsıdır və nəticədə faciəyə sürüklənir. Əgər Nizami Gəncəvinin, həmçinin Səməd Vurğunun Fərhadı eşq uğrunda dağları yaran, lakin günahsız ölən qəhrəmandırsa, Arif Ərdəbilinin Fərhadı günahının yükünü daşıyan və dövrün feodal qanunları içində əzilən bir insandır. Onun ölüm səbəbi də fərqlidir: o, sevgisinin yox, keçmiş günahının intiqamı nəticəsində, zəhərlənərək ölür.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 358-365*

Beləcə, Ərdəbili Fərhad obrazını ideallaşdırmır, əksinə onu bəşəri zəiflikləri ilə təqdim edir. Bu, həm müəllifin yaşadığı XIV əsr feodal mühitinin mənəvi böhranlarını əks etdirir, həm də insanı “ilahi aşiq” deyil, sınaqlardan keçən real varlıq kimi göstərir.

Səməd Vurğunun “Fərhad və Şirin” əsəri klassik süjetə milli-romantik baxışın tətbiqidir. Şair Fərhadı artıq hökmdar oğlu kimi deyil, xalq içindən çıxmış sənətkar - nəqqaş kimi təqdim edir. Onun sənəti, zəhməti və istedadı xalqın gözəllik duyğusunun ifadəsidir. Əsərdə Fərhadın yaratdığı hər bir gözəllik Şirinə olan məhəbbəti ilə bağlıdır:

*“Bir də...İlham verir mənə məhəbbət,*
*Onun meyvəsidir bu iş, bu sənət. ” [3; s.139]*

Bu, Fərhadın sənətə və sevgiyə eyni mənəvi bağlılığını göstərir.

Əsərin süjet xətti boyunca Fərhad saf məhəbbətin, mübarizliyin və sədaqətin simvoludur. Şirinin qaçırıldığını eşitdikdə, qorxmadan Xosrovla mübarizəyə hazırlaşması onun həm aşiqliyini, həm də qəhrəmanlığını göstərir.

Fərhadın müsbət qəhrəman olaraq təsvir edildiyi səhnələrdən biri də digər əsərlərdə pasiv olan Məryəm obrazının aktivləşdiyi bu əsərdə onların qarşılaşması səhnəsidir. Məryəm ona qılınc çəksə də həyatı boyu bir qadına əl qaldırmadığını bildirərək geri çəkilir, hətta Şiruyənin anasını öldürməsinə belə mane olur:

*"Ömrümdə qadına əl vurmamışam,*
*Mələklə üz-üzə heç durmamışam.*
...
*Bir dayan, binamus, vicdanın varmı?*
*Oğul da anaya əl qaldırarmı?" [3; s. 236-237]*

Əsərdə maraqlı məqamlardan biri Şirin obrazının ziddiyyətliliyidir. O, əsər boyu qərarsız görünür, Xosrovun əsl üzünü gördükdən sonra Fərhadın sevgisini seçir. Səməd Vurğunun Fərhadı isə əksinə, mənəvi baxımdan möhkəmdir, “daşı yaran, amma sevgisindən dönməyən” obrazdır.

Poemanın kulminasiyasında Fərhad Şirinin ölüm xəbərinə dözməyərək canına qəsd edir. Bu, onun sədaqətinin və saf hisslərinin son zirvəsidir.

Səməd Vurğunun yaratdığı Fərhad həm milli qəhrəman, həm də mənəvi təmizlik simvolu kimi təqdim olunur. O, “ilahi aşiq”dən çox, xalqın aşiqidir - sevgi, vətən və əməyin bütövlüyündə mübarizə aparan bir şəxsiyyət.

Nazim Hikmətin “Fərhad ilə Şirin” əsəri klassik isə süjetin modern, ideoloji və sosialist yozumudur. Burada hadisələr Mehmene Banu, bacısı Şirin və Fərhad arasında cərəyan edir. Əsərdə Fərhad yenə də mahir nəqqaş, sənət adamıdır, lakin onun əsas məqsədi artıq şəxsi sevgi deyil, xalqa xidmətdir.

Fərhadın Şirinə olan sevgisi təmiz və səmimidir, lakin əsərin gedişində bu sevgi ictimai məqsədə tabe edilir. O, Dəmirdağı yarmağa təkcə Şirinə qovuşmaq üçün

deyil, xalqına su gətirmək, yəni onların rifahını təmin etmək üçün çalışır. Nazim Hikmət Fərhadın dilindən bunu açıq ifadə etdirir:

*"FERHAD: Bu kayayı da deleceğim, su akacak şehre. Çeşmelerden artık irin değil, tertemiz, ışıl ışıl su akacak...*

*ŞİRİN: Çıldırdın mı? Ablam koştuğu şarttan vazgeçti diyorum... Anlamıyor musun?*

*FERHAD: Ablanın bu işte bana şart koşmuş olduğunu çoktan unuttum... " [4; s.133]*

Bu cümlə onun obrazının mahiyyətini açır - sevgi burada artıq ictimai borcun və humanist idealın təzahürüdür.

Əsərin sonunda Nazim Hikmət ənənəvi faciəvi sonluğu dəyişdirir: nə Fərhad, nə də Şirin ölür. Onlar ayrılığa razı olurlar, lakin ümid ölmür. Bu, müəllifin gələcəyə inamına əsaslanır.

Nazim Hikmətin Fərhadı "sosialist realizm" prinsiplərinə uyğun pozitiv qəhrəmandır. O, məhəbbətini xalq sevgisinə çevirməyi bacaran insandır. Bu baxımdan o, Səməd Vurğunun Fərhadı ilə eyni ideoloji müstəviyə daxil olur: hər iki müəllif Fərhadı xalqın, əməyin və azadlığın təcəssümü kimi göstərir.

**Nəticə**

Arif Ərdəbili, Səməd Vurğun və Nazim Hikmətin eyni mövzuda — "Fərhad və Şirin" süjet xətti üzərində yaratdıqları əsərlər, hər şeydən əvvəl, dövrün ədəbi-estetik düşüncəsinin və ictimai mənəvi dəyərlərinin ifadəsidir.

Müxtəlif janrlarda – məsnəvi və dram – təqdim olunan bu əsərlər göstərir ki, eyni mifoloji süjet müxtəlif dövrlərdə fərqli estetik-fəlsəfi məqsədlərə xidmət edə bilir. Arif Ərdəbilidə eşq ilahi dərkdən real dünyaya yol kimi verildiyi halda, Səməd Vurğunda o, xalqın mənəvi azadlığını ifadə edən qüvvəyə çevrilir, Nazim Hikmətdə isə inqilabi ruh və bəşəri humanizm ideyası ilə qovuşur. Beləliklə, Fərhad obrazı əsrlər arasında bir kulturologik körpü rolunu oynayaraq, insanın həm fərdi, həm də ictimai kamilləşmə idealının simvoluna çevrilir. Nəticə etibarilə, bu üç əsərin müqayisəsi bir daha sübut edir ki, klassik mövzu heç vaxt öz bədii-ideya potensialını itirmir; o, hər bir dövrün mənəvi və estetik tələblərinə uyğun şəkildə yenidən yozulur. Fərhad obrazının Arif Ərdəbilidə mənəvi, Səməd Vurğunda sosial, Nazim Hikmətdə isə humanist məna kəsb etməsi, Azərbaycan və türk ədəbiyyatında eyni süjetin zamanla ideya-fəlsəfi transformasiyasını aydın şəkildə nümayiş etdirir. Beləliklə, Fərhad obrazı zamanla fərdi sevgidən ictimai idealizmə, mənəvi sınaqdan bəşəri dəyərə doğru inkişaf etmişdir. Tədqiqat nəticəsində aydın olur ki, Fərhad obrazı əsrlər boyu dəyişən ictimai və mənəvi dəyərlərin güzgüsünə çevrilərək, hər bir müəllifin öz dövrünə uyğun insan idealını ifadə etmişdir.

**Ədəbiyyat**

1. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Lider Nəşriyyat, 2004.

2. Arif Ərdəbili. Fərhadnamə. Bakı: M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007.
3. Vurğun, S. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı: Şərq-Qərb, 2013.
4. Hikmet, N. Ferhat ile Şirin. Oyunlar-2. İstanbul: Adam Yayınları, 1987.
5. Mehdiyev, H. Səməd Vurğunun "Fərhad və Şirin" mənzum dramında klassik irsdən istifadənin özəllikləri.
6. Ulusoy Tuncel, A. Samed Vurğunun "Ferhad ve Şirin" oyunu ilə Nazim Hikmet'in "Ferhat ile Şirin" oyunu üzərində müqayisəli bir araşdırma.
7. Yusifli, V. Arif Ərdəbili – Nizami Gəncəvi "münaqişəsi". Ədalət qəzeti, "Tənqid tariximizdən", 5-ci yazı.
8. Nizami ənənələrini özünəməxsus şəkildə davam etdirən sənətkar – Arif Ərdəbili. Hərbi And qəzeti, 27 dekabr 2019.
9. Bektaş, N. Toplumcu gerçekçilik bağlamında Nazım Hikmet'in "Ferhat ile Şirin" oyununa metinlerarası bir bakış. Millî Folklor, 2009, il 21, № 83.

## The Historical and Modern Interpretation of the Image of Farhad (Based on the Works of Arif Ardabili, Samad Vurgun, and Nazim Hikmet)

**ZAHRA ZULFU RZAZADA**

**Abstract**

The article provides a comparative analysis of the artistic transformation of the image of Farhad at different historical stages and the changes in its moral and ideological content, based on Arif Ardabili's "Farhadnameh", Samad Vurgun's "Farhad and Shirin" and Nazim Hikmet's "Farhad ile Shirin". The main objective of the study is to reveal the moral, social and ideological evolution of the image of Farhad, which was formed as a symbol of divine love in classical Eastern literature, throughout the centuries. Comparative analysis demonstrates that all three authors reconstruct the image of Farhad in accordance with the socio-political realities and aesthetic paradigms of their respective periods. In this context, Farhad is presented not only as a hero of individual love, but also as an ideological model emphasizing labor, willpower and the human factor.

Thus, the semantic load of the image shifts from a mystical-divine level to a social and humanistic plane, revealing the modern interpretative potential of the classical motif.

**Keywords:** *Farhad, interpretation, Arif Ardabili, Samad Vurgun, Nazim Hikmet, love and ideology, classical and modern literature.*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 358-365*

# Историческая и современная интерпретация образа Фархада (на материале произведений Арифа Ардебили, Самеда Вургуна и Назима Хикмета)

**ЗАХРА ЗУЛЬФУ РЗАЗАДЕ**

**Аннотация**

В статье проводится сравнительный анализ художественной трансформации образа Фархада на различных исторических этапах и изменений его нравственно-идеологического содержания на материале произведений Арифа Ардебили «Фархадname», Самеда Вургуна «Фархад и Ширин» и Назима Хикмета «Фархад и Ширин». Основной целью исследования является выявление моральной, социальной и идеологической эволюции образа Фархада, сформировавшегося в классической восточной литературе как символ божественной любви. Сравнительный анализ показывает, что все три автора переосмысливают образ Фархада в соответствии с общественно-политическими реалиями и эстетической системой своего времени. В данном контексте Фархад представлен не только как герой индивидуальной любви, но и как идеологическая модель, акцентирующая труд, волю и человеческий фактор.

Таким образом, семантическая нагрузка образа смещается с мистико-божественного уровня на социально-гуманистическую плоскость, что раскрывает возможности современной интерпретации классического мотива.

**Ключевые слова:** *Фархад, интерпретация, Ариф Ардебили, Самед Вургун, Назим Хикмет, любовь и идеология, классическая и современная литература.*

**Rəyçi: filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov**